# “Nizami Gəncəvi və Şərq ədəbiyyatları: ədəbi təsirin hüdudları” mövzusunda beynəlxalq elmi konfrans keçirilib






2021-ci il oktyabrın 8-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr olunmuş “Nizami Gəncəvi və Şərq ədəbiyyatları: ədəbi təsirin hüdudları” mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Konfransa Azərbaycan, Misir, Küveyt, Özbəkistan, İordaniya, Pakistan və İraqdan alimlər qatılıblar.

Konfransın açılışı AMEA-nın əsas binasındakı kiçik akt zalında baş tutub.

Konfransı giriş sözü ilə AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyli açıb. İ.Həbibbəyli 2021-ci ilin Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən “Nizami Gəncəvi ili” elan edildiyini xatırladaraq, bununla əlaqədar AMEA-da çox saylı tədbirlər planlaşdırılaraq həyata keçirildiyini qeyd edib.

AMEA-da Nizami Gəncəviyə həsr olunmuş konfransların, seminarların, dəyirmi masaların, kitab təqdimatlarının









keçirildiyini deyən İ.Həbibbəyli, akademiyanın alimlərinin xaricdə də bir sıra konfranslarda Nizami ilə bağlı məruzələr etdiklərini, ölkəmizdə telekanallarda, məktəblərdə bu mövzuda çıxışlar etdiklərini vurğulayıb, bu il AMEA-da Nizami Gəncəviyə həsr olunmuş 21 kitabın işıq üzü gördüyünü, daha 15-ə yaxın kitabın hazırda çapda olduğunu bildirib. Nizamini dünya ədəbiyyatının Günəşi, Azərbaycan xalqının milli iftixarı adlandıran İ.Həbibbəyli dahi Azərbaycan şairinin yaradıcılığının müstəqillik, azərbaycançılıq idealları əsasında xalqa yenidən çatdırılmasının vacibliyini qeyd edib.

Şərqşünaslıq İnstitutunun baş direktoru akademik Gövhər Baxşəliyeva giriş nitqində rəhbərlik etdiyi elmi müəssisədə Nizami Gəncəvinin yaradıcılığına dair aparılan tədqiqatlardan, nəşr edilən və çapda olan kitablardan, keçirilən elmi seminarlardan bəhs edib. Tədbirdə "Tarixi Azərbaycan torpaqlarında türklərin məskunlaşması (görkəmli alim, akademik Ziya Bünyadovun əsərləri əsasında)" mövzusunda məruzə edən G.Baxşəliyeva bir sıra xarici dairələrdə Nizaminin etnik mənsubiyyəti ilə bağlı yanlış fikirlər irəli sürülməsinə, şairin Gəncədə fars ailəsində doğulmasını iddia etmələrinə diqqəti çəkərək, dahi şairin azərbaycanlı olmasının hər kəsə sübut etməyin alimlərimizin borcu olduğunu bildirib. Gövhər xanım məruzəsində akademik Ziya Bünyadovun əsərlərində Gəncənin XII əsrdə etnik tərkibinə kifayət qədər aydınlıq gətirildiyini qeyd edərək, bu ərazilərdə türk qəbilələrinin çox qədimdən yaşadığına dair tarixi mənbələrdə tutarlı faktların olduğunu qeyd edib.




Şərqşünaslıq İnstitutunun Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin müdiri, f.ü.e.d., professor Mehdi Kazımov "XIV-XV əsrlər Azərbaycan ədəbiyyatında Nizami "Xəmsə"sinə nəzirələr (Cəmalinin "Xəmsə"si əsasında)" mövzusunda məruzə edib. M.Kazımov Nizamiyə orta əsrlərdə çoxsaylı nəzirələrin yazıldığını, lakin bütöv "Xəmsə"yə yazılan nəzirələrin az olduğunu qeyd edərək, bələlərinin sırasında Əlişir Nəvai, Əbdürrəhman Cami kimi görkəmli şairlərin olduğunu deyib. Azərbaycan şairlərindən də Cəmali Təbrizi və Əşrəf Marağayi "Xəmsə"yə nəzirə yazıblar. M.Kazımov məruzəsində Azərbaycan ədəbiyyatı tarixində zaman baxımından Nizami Gəncəvinin "Xəmsə"sinə ilk nəzirə yazan Cəmali Təbrizi barədə ətraflı danışıb.

Daha sonra f.ü.e.d., professor İmamverdi Həmidov "Nizami Gəncəvi irsi ərəb alimlərinin araşdırmalarında", f.ü.e.d., professor Elman Quliyev "Nizami Gəncəvi yaradıcılığının ədəbi təsir dairəsi", f.ü.e.d. Almaz Ülvi Binnətova "Dünya ədəbiyyatının Nizami Gəncəvisi", f.ü.f.d.., dosent Səadət Şıxıyeva "Divan ədəbiyyatında "Məxzənül-əsrar"a müraciətin şəkilləri" mövzularında məruzələr ediblər.




Özbəkistanlı alim, t.ü.f.d., dosent Vera Muxamedcanovanın "Nizami və Nəvai – Azərbaycan və özbək xalqlarının yüzillik tarixində iki şəxsiyyət" və pakistanlı alim, professor Almaz Xanımın "Nizami Gəncəvinin Pakistan ədəbiyyatına təsiri: urdu və digər dillərin nümunəsində" mövzusunda çıxışlarının videoyazısı konfrans iştirakçılarının diqqətinə çatdırılıb.

Konfrans öz işini Şərqşünaslıq İnstitutunda bölmə iclaslarında davam etdirib. Xarici iştirakçılar konfransa onlayn formada qatılıblar.

**Vüqar Məmmədov,**
*filologiya üzrə fəlsəfə doktoru*